**Vergi işçisinin etik davranış Kodeksi**

Fəsil 14.
Kodeksin tələblərinə əməl
etməklə bağlı işçinin üzərinə düşən öhdəliklər

14.1. Hər bir işçi Kodeksin bütün müddəaları ilə tanış olmalı, onların konkret halda necə tətbiq olunduğunu bilməlidir.

14.2. Hər bir işçi Kodeksi aldıqdan sonrakı 10 gün ərzində sənədlə tanış olmalı və zərurət yarandıqda və ya Kodeksin hər hansı bir hissəsini başa düşmədikdə özünün birbaşa rəisinə və ya nazirliyin etik davranış məsələləri üzrə səlahiyyətli şəxsinə bununla bağlı yazılı və ya şifahi formada müraciət etməlidir.

14.3. İşçi Kodeksin orijinal nüsxəsini aldıqdan 10 gün sonra onun alınmasına və Kodeksin bütün bəndlərini başa düşməsinə dair bu sənədə əlavə olunmuş formalı qəbzi imzalayaraq Kodeksi aldığı tarixi qeyd etməli və onu özünün birbaşa rəisinə təqdim etməlidir.

14.4. Hər bir rəis tabeliyində olan işçilərdən aldığı qəbzin surətini çıxarmalı və 10 gün ərzində orijinal nüsxələri etik davranış məsələləri üzrə səlahiyyətli şəxsə təhvil verməlidir. Qəbzlərin surəti rəisdə qalmalı və növbəti yeniləşməyə qədər saxlanılmalıdır. Etik davranış məsələləri üzrə səlahiyyətli şəxs orijinal nüsxəni işçinin şəxsi qovluğunda saxlamalıdır.